# QƏDİMALIYEV ARİF MAASİF OĞLU



Qədimalıyev Arif 13 iyul 1975-ci ildə Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. 1992-ci ildə burada orta məktəbi bitirdikdən sonra bir müddət “Nəvai” adına savxozda işləyib. 1993-cü ildə Ağstafa rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılır. O, Sumqayıtda və Qusarda hərbi təlim keçir. 1994-cü il yanvrarın 18-də cəbhəyə göndərilir. O, ilk döyüşlərə kəşfiyyatçı kimi başlayır. Hərbi təlimlərdə qazandığı təcrübə, mətinlik qızğın döyüşlərdə onun köməyinə çatırdı. O, 172 saylı hərbi hissənin tərkibində Füzuli, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə yaxından iştirak edir, həm kəşfiyyatçı, həm də nişançı-atıcı kimi komandirlərin hörmət və təşəkkürlərini qazanır. Qədimalıyev Arif Ağdərə, Tərtər bölgələrində aparılan əməliyyatlarda rəşadət nümunəsi göstərmişdir. 1995-ci ilin 13-17 mart hadisələri zamanı o, dövlət çevrilişi cəhdinin qarşısının alınmasında, dövlətçiliyimizə qənim kəsilən qüvvələrin zərərsizləşdirilməsində, müstəqil Azərbaycan uğrunda öz canını qurban verdi. Dağ Kəsəmən kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Resbublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Qədimalıyev Arif Maasif oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Ağstafa şəhərində büstü qoyulmuşdur, adına mədəniyyət evi var.